**UOT 821.512.162**

**Kəmalə Kamil qızı CƏFƏROVA**
AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
**cafarova66@mail.ru**

# MÜASİR AZƏRBAYCAN NƏSRİNDƏ SOVET REPRESSİYASININ İFŞASI
***(Mehdi Hüseynin, Yusif Səmədoğlunun, Elçinin, Hüseyn İbrahimovun əsərləri əsasında)***

**Açar sözlər:** müasir Azərbaycan nəsri, repressiya, Hüseyn Cavid, Stalin, M.C.Bağırov
**Keywords:** modern Azerbaijani prose, repression, Hussein Javid, Stalin, M.J.Bagirov
**Ключевые слова:** современная азербайджанская проза, репрессия, Сталин, М.Дж.Багиров

**Giriş.** Müasir Azərbaycan nəsrində sovet repressiyasının ifşasına həsr olunmuş əsərlər tiplərin, xarakterlərin, təsvir olunan hadisələrin daha real və inandırıcı olması ilə diqqəti cəlb edir. Azərbaycan nəsrində 1937-ci il sovet repressiyasının ifşasına həsr olunmuş, həmin dəhşətli bəlaların mahiyyətini, ayrı-ayrı böyük sənətkarların, ziyalıların repressiya qasırğası ilə cismən məhv və ya Sibir sürgünündə əzablara məhkum olunduğunu əks etdirən bir neçə roman var.

**Müasir Azərbaycan nəsrində repressiya mövzusu və onun əksi.** Nəsrdə bu mövzuda ilk əsəri Xalq yazıçısı Mehdi Hüseyn (1909-1965) "Yeraltı çaylar dənizə axır" (1964-1965) romanında qələmə almışdır. Həyatın müxtəlif keşməkeşlərindən keçən gənc bir qadının – Samirə Aydının həyatı, keçirdiyi ağır iztirablar burada öz əksini tapır. Müəllif onu müsbət qəhrəman kimi təqdim edir. O, Mehdi Hüseynin vaxtı ilə öz nəsrində canlandırdığı obrazlara oxşayır – təmiz, saf, həmişə öz həyat devizinə, məramına sadiq qalan müsbət qəhrəman. Haqqı tapdalanan, böhtanlara, təqiblərə məruz qalan, qəlbi parçalanan Samirə ilk sevgisini itirir, övladlarından, ailəsindən ayrı düşür, sürgün olunur, ən adi insan hüquqları əlindən alınır. Lakin sarsılmır, insanlara inamını, etimad və məhəbbətini itirmir...

Samirə Aydının əri Müdhət Aydın müharibədə əsir düşüb. Onun artıq “vətən xaini” olduğu deyilir. Amma Samirə ona inanır. Buna görə isə başı çox bəlalar çəkir, partiya sıralarından və işdən çıxarılır, ona verilən evi boşaltmağa məcbur olur, sonra da sürgün edilir. Mehdi Hüseyn onun sürgün həyatını, keçirdiyi iztirabları daha dolğun və real əks etdirmişdir. O, sürgün həyatında da yenə gözünü gələcəyə dikir, bir gün də ümidini itirmir. Hətta Müdhətin məktubu da onun bu ümidlərini iflasa uğratmır: "Əziz dost! Uzaq Şimala yaxınlaşırıq. Bu sözləri yazdığım vaxt necə iztirab çəkdiyimi təsəvvürümə gətirə bilmərəm. Məni bir daha gözləmə. Əgər özünə layiq başqa birisiylə… yox, ağırdır. Hər hansı bir ərin öz həyat yoldaşından onun yolunda ömrünü çürütməyi tələb etməyə mənəvi haqqı varmı? Məncə, yoxdur. Bəlkə sən başqa birisi ilə xoşbəxt olacaqsan? Əgər sən özünə layiq gördüyün bir insanla yenidən həyat qursan, inan ki, bu mənim qüruruma və heysiyyətimə zərrəcən də toxunmaz. Mən ki köhnə müsəlman deyiləm" [3, s.143]. Əlbəttə, Müdhətin bu məktubu təsiredicidir. Sevdiyi qadın ona inanır, amma Müdhət sanki öz taleyi ilə barışır. Ola bilər ki, Midhət bir daha geri qayıdacağına inanmır. Əslində isə səbəb

başqadır. O dövrdə “vətən xainləri”nin təkcə özləri yox, ailələri də böyük sıxıntılara, repressiyaya məruz qalır, ya həbsə atılır, güllələnir, ya da sürgün edilir, övladları analarının əllərindən alınıb uşaq evlərinə verilirdi. 30-cu illərin repressiyası uzaq keçmişdə deyil, yaxın tarixdə olmuşdu və hələ də bu və ya digər formada həyata keçirilirdi. Cəbhədə hünər və qəhrəmanlıq göstərənlər dedikləri və ya yazdıqları adi bir ifadəyə görə “vətən xaini” kimi həbs və sürgün edilirdilər. Yaralı, huşsuz halda alman faşistləri tərəfindən əsir götürülənlər də o cümlədən. Bunlara şahid olmuş insanlar “vətən xaini” adlanmağın nə demək olduğunu bilirdilər. Midhət də, görünür, ailəsini, sevdiklərini qorumaq üçün bu üsula əl atmaq məcburiyyətində qalmışdı.

Romandakı Mollayev obrazı, təbii ki, Mir Cəfər Bağırovun prototipidir. O, repressiyanın başında duranlardan biri idi. M.Hüseyn Mollayevlə Ceyran xanım xəttini əsərdə daha artıq qabardır. Müəllif Mollayevin məhkəməsində Ceyran xanımın dili ilə Bağırov, Mollayev kimilərə sözlərini deyir: "Mən bu dəstənin başçısı Mollayevdən şəxsi intiqam almaq fikrində deyiləm. Ondan elə mənsiz də, mənim müdaxiləm olmadan intiqam alınmışdır. Dünənki iclası xatırlayırsınız. Deyilmi? Burada oturmuş camaat müttəhimlərə nə acıyırdı, nə də qəzəblənirdi, elə bil indi mənim dayandığım səhnədə göstərilən komediyaya baxıb gülürdü. Məncə, bundan, bu gülüşdən böyük intiqam olmaz. Mən açıq-aydın hiss eləyirdim ki, bu gülüşdə xalq mənəviyyatının qüdrət və zəfəri səslənirdi. Demək, şər qüvvələr üzərindəki qələbəsini bayram eləyən insanlar dünənin faciəsindən gülə-gülə ayrılmaq istəyirdilər! Ancaq hamı üçün bir şey aydındı ki, bu intiqam çox gecikmişdir, həddindən çox! Axı bu cəlladların həlak elədiyi inqilab qəhrəmanlarını, alimləri, mühəndisləri, yazıçıları, aktyorları geri qaytarmaq mümkün deyil. Biz ağlamalı ikən gülürdük. Ona gülürdük ki, xalqın sonsuz bir məhəbbətlə sevdiyi söz adamlarını, şairləri, romançıları, müstəsna istedadları geri qaytarmaq mümkün deyil. Onları güllələyən bu adamların özləri kəmsavaddırlar" [3, s.312]. Bu səhnədə M.Hüseyn illərdən bəri ürəyində yaşatdığı, amma məlum səbəblərə görə susmağa məcbur olduğu qəzəbi ifadə etmişdir.

Xalq yazıçısı Yusif Səmədoğlunun çap olunan kimi ədəbi hadisəyə çevrilən "Qətl günü" romanı səksəninci illərdə ilk dəfə "Azərbaycan" jurnalında işıq üzü görüb. Roman haqqında ilk sözü Xalq yazıçısı Anar söylədi: "Çağdaş romançılıq axtarışlarının uğurlu nəticəsini "Qətl günü"ndə də görmək olar. Bu əsər Azərbaycan tarixiylə, ictimai həyatımızın həm iki yüz il, həm əlli-altmış il bundan qabaqkı, həm də bugünkü dövrləriylə bağlıdır. Romanda uzaq və yaxın keçmişimizin, məişət yaşayışımızın, taleyimizin, milli mənəviyyatımızın bir çox mühüm məsələləri qaldırılır. Mənim fikrimcə, bu romanın meydana çıxması ədəbi fakt çərçivəsindən qat-qat böyük əhəmiyyətə malikdir. "Qətl günü" – müasir ədəbiyyatımızın həqiqət günüdür" [1, s.90-91]. "Qətl günü" elə bir dövrdə meydana gəldi ki, artıq sovet ədəbiyyatının bir çox prinsipləri tənəzzülə uğramaqda idi. Altmışıncı illərdən başlayaraq ədəbiyyatda "müsbət qəhrəman" tendensiyası zəifləməyə başlamışdı. O müstəsna qəhrəmanların yerini sadə, sıravi insanların obrazları tutdu. Nəsrdə mənəvi-əxlaqi problemlərə maraq artdı. Müasir insanın təsviri məhz bu mövzuda yazılan əsərlərdə diqqəti cəlb etməyə başladı. Mənəviyyat məsələləri ön plana keçdi. Tarixi romanların yazılmasında da yeniliklər, məlum stereotiplərdən, şablonlardan qaçmaq meyli ilə rastlaşırıq. Bu tarixi romanlarda bəy, xan, mülkədar obrazları daha "qara qətran" içində təsvir edilmirdilər, onların insani keyfiyyətləri, fərdi yaşantıları da ön plana çəkilirdi. İlk dəfə İsmayıl Şıxlı (1919-1995) bu ənənəni aradan qaldıraraq "Dəli Kür" romanında bir Azərbaycan kişisinin – Cahandar ağanın obrazını yaratdı.

Fərman Kərimzadənin "Qarlı aşırım" romanında da Kərbəlayı İsmayıl mənfi deyildi. Sonralar tarixi romanlar silsiləsi genişləndi, Yusif Səmədoğlunun "Qətl günü", Elçinin "Mahmud və Məryəm", "Ölüm hökmü", Çingiz Hüseynovun "Fətəli fəthi", Mövlud Süleymanlının "Köç" romanları tarixi romanın yeni bir mərhələyə keçidini müəyyənləşdirdi. Heç şübhəsiz, Yusif Səmədoğlunun "Qətl günü" romanı bu əsərlər sırasında özünəməxsus yer tutur. "Qətl günü" tarixi aspektdə işlənən fəlsəfi-psixoloji romandır. Bu tipli romanlarda hadisələrin, situasiya və vəziyyətlərin, insan səciyyələrinin təsviri daha çox fəlsəfi aspektdədir, müəllif təsvir etdiyi lövhələrin mahiyyətinə, daxili mənasına enməklə bərabər həm də əsərdə qaldırdığı problemi ümumbəşəri, daha əhəmiyyətli problem kimi mənalandırır.

Əlbəttə, tarixi bir səpkidə yazılmış romanlarımızda fəlsəfi-psixoloji xəttin üstünlük təşkil etdiyi digər romanlara da təsadüf etmişik. Məsələn, İsa Hüseynovun "Məhşər" romanında Nəsimi ilə Teymurun üz-üzə gəlməsi, onların dialoqları adi mübahisə, bir-birinə nəyisə isbatlamaq xarakteri daşımır: "Teymur: "– Xırda həşərat iri həşəratdan qorxur... Qoyun qurddan qorxur... Gücsüz adam güclüdən... Cəmi bəşər də bir olan Allahdan qorxur! – dedi. – Qorxu üstündə bərqərar deyilmi dünyamız?

Nəsimi ağır-ağır başını buladı: – Güclü-gücsüz insan yoxdur, əmir! Cahil var, kamil var. Cahilin tərzi-həyatı heyvanatın tərzi-həyatına həqiqətən uyğundur. Çünki hər ikisi idrakdan məhrumdur. Həqqə qovuşan kamillər isə dünyada qorxunun səbəblərini öyrənirlər, yağışın, çovğunun, qar-boranın, səmumun, zəlzələnin, yerdə və göydə hər şeyin günəş təsirindən və cisimlərin bətnində təbəddülatdan törədiyini fəhm edib, elm qüdrətilə qorxudan xali olurlar! O kamillərdən birisi sənin hüzurundadır, bax gör üzümdə qorxudan bir əlamət taparsanmı?" [4, s.234].

"Qətl günü" məhz fəlsəfi, insanı düşündürən problemlərlə diqqəti cəlb edir. Romanda əbədi Xeyir-Şər mübarizəsi, İnsan və Zaman problemi öz əksini tapır. Əsərin orijinal strukturu da nəzərdən qaçmır, belə ki, bir roman daxilində üç roman yerləşir, bu da təsvir olunan üç Zamanla bağlıdır. Lakin bu zaman keçidləri bir-biri ilə sıx əlaqəlidir. Bu zaman keçidləri daha çox bir hekayədən digərinə keçmək, bugünə aid əhvalatı kəsib dünənlə bağlı bir əhvalatı təsvir etmək, eləcə də əksinə, dünənlə bağlı bir əhvalatı yarımçıq saxlayıb bu günə aid əhvalatı qələmə almaq şəklindədir. Zamanın üç tipi (üç dövrü) arasında dialektik bir əlaqə var. Zamanlar dəyişir, təbii ki, XVIII əsrlə, XX əsrin otuzuncu illəri və altmışıncı illəri arasında böyük ictimai-siyasi-mənəvi fərqlər nəzərə çarpır. Lakin hadisələr elə qurulub ki, üç zaman arasında keçidlər bir elə əhəmiyyət daşımır, çünki hər üç zamanda zahirən eyni, amma bir-birindən fərqli hadisələrlə üzləşirik. Zamanlar dəyişir, ictimai quruluşlar bir-birini əvəz edir, amma mahiyyət dəyişmir, uzaq tarixi keçmişdə baş verən hadisələr XX əsrin otuzuncu illərində yeni bir tərzdə meydana çıxır. Bütün repressiyaların mahiyyətini qorxu, işgəncə, sürgün, istintaq prosesi, həbs və ən dəhşətlisi ölüm və qətl hadisələri təşkil edir. Romanda da bunlar ardıcıl şəkildə davam edir, sovet repressiyasının törətdiyi insan faciələri öz əksini tapır. Lakin bu barədə söz açmazdan əvvəl romanda uzaq tarixi keçmişdən bəhs edən hadisələrə diqqət yetirək. Çünki məmləkətin iki əsr əvvəlki tarixi keçmişi ilə sovet repressiyasının tüğyan etdiyi illər müəyyən mənada bir-biriylə həmahəngdir. Müharibə dəhşətləri, bir ordunun başqa bir ölkəni zəbt etməsi, qəsbkar hökmdarın azğınlığı, həm ayrı-ayrı fərdlərin, həm də xalqın mənəviyyatının ayaqlar altında tapdanması, ekzotik Şərq sarayı – romanın uzaq tarixi keçmişdən bəhs edən hissəsində bütün bunlar real və inandırıcılıqla canlandırılmışdır.

Hökmdarın sərbazlarından biri onun qoyduğu qanuna zidd gedərək bir gavur qızı ilə kefə qurşanıb, ona görə də mütləq cəzasını almalıdır. "İndi hər şey yalnız hökmdarın iradəsindən asılı idi. Hökmdar əlini qaldırdı, cəllada işarə verdi. Cəllad canı çıxmış, yalnız quruca nəfəsi qalmış sərbazı edam yerinə qaldırdı, soyuq baxışların altında öz işini gördü: sərbaz cınqırını da çıxarmadı – qırxıq baş bir göz qırpımında bədəndən ayrılıb sarımtıl otların üstünə dığırlandı, yalnız baltanın iti tiyəsi cingildədi. Və bir də, bu öyrəncəli sükut içərisində hamı gavur qızının sinəsindən qopan ahını eşitdi. Amma heç kəs cürət edib gavur qızına baxmadı, bir hökmdardan başqa; o, ağır-ağır başını döndərib, gözlərini qıyıb əvvəl gavur qızının yalın ayaqlarına, kirli dırnaqlarına baxdı, sonra gözləri yenə bəyaz saçlara dikildi. Bu bəyaz rəng axıb hökmdarın qaralmış sifətinin qırışları arasına yayıldı: hökmdarın sifətində işıq gəzdi, lakin bu işığı heç kəs görmədi. Bu işığı yalnız Tanrı gördü:

– Vəzir!

Hökmdar ayağa qalxdı. Hamı əmrə müntəzir dayandı.

– Bu qancığın qarnından çıxmışın heybəsinə çörək qoyun. Qoy qayıtsın məmləkətinə.

Hökmdar dönüb üzü çadırına sarı dayandı və davam elədi:

– Qalanı almayınca, qaladakı erkəkləri qanına qəltan etməyincə Səlim sərbazın başını nizəyə keçirib lap qurd düşüncəyə qədər saxlayın" [7, s.164-165]. İşğalçı, despot hökmdar bununla da kifayətlənmir. Ordular, qalalar məhv edilir, xalqın mədəni sərvətləri də zorakılığa məruz qalır. Bu, təkcə zorakılıq və güclə yox, həm də hiylə, məkr, satqınlıqla icra olunur. Hökmdarın sarayında böyük bir yaltaqlar sürüsü yaşayır. Onların da bir qismi şahın şərəfinə şeirlər qoşan saray şairləridir. Bu saray şairləri məmləkətin ən qüdrətli şairinin aradan götürülməsinə can atırlar. Onlar hökmdarı razı salırlar ki, həmin o qüdrətli şairi, məmləkətin sevimlisi olan bu insanı edam etsinlər. Vəzir hökmdarın şairin camaatın gözü qabağında edam edilməsi əmrinə etiraz edir, ancaq hökmdar bundan qəzəblənir, onun fikrincə, şairin edamı işğal etdiyi ölkədə insanların mütilik əhvali-ruhiyyəsini daha da artıracaq. Əvvəlcə şairin dilini kəsirlər, çünki "qırmızı libaslı cəlladın iti baltası havaya qalxmamışdan qabaq edama məhkum olanların hamısı hökmdarın qarşısında diz çöküb ondan imdad diləmişdilər. Vəzir də, vəkil də bilirdi ki, şair heç kəsdən imdad istəməyəcək, ağzını dağıdıb acı sözlərlə böyük bayramı böyük matəmə çevirəcək. Buna görə də pıçıldaşıb-qıqqıldaşıb şairin dilini kəsdirmişdilər" [7, s.234].

Şairin edamı romanda ən dəhşətli bir səhnədir. "Şairi edam yerinə qaldırdılar. O, gözlərini qıyıb əvvəl-əvvəl aşağıda, meydançanın ortasında taxtda əyləşmiş hökmdarı gördü və şairin gözləri qaqqanaq çəkib güldü, xədim xocanın çöhrəsi heyva çürüyündən də artıq qırış idi və xədim xanın uşaq başı boyda balaca bir başı vardı. Sonra şair başını ağır-ağır endirib sərbazlara baxdı: sərbazlar təzək iyi verirdilər. Sağ tərəfdə dayanıb qorxu içində şairin edamına tamaşa edən öz obalılarını – qocaları, qarıları, cavan oğlan uşaqlarını və nəhayət, ömrü boyu uca qamətlərini və ala gözlərini vəsf etdiyi gəlinləri, qızları görəndə gözündən bir damla da yaş axdı: bu damla da ağ deyildi, bu damla da qırmızı idi. Şairin ürəyi od tutub yandı, şair bildi ki, qara telləri çiyinlərinə tökülüb məlul-məlul dayanmış, göz yaşları qurumuş bu gəlinlərin, bu qızların hər birinin bətnində indi neçə-neçə sərbaz toxumu var. Gözlərinə qırmızı yaş gəldi və şair ürəyində öz obalılarından halallıq istədi" [7, s.234-235].

Edamdan sonra isə sarayda hökmdarın əmri ilə bayram təntənəsi keçirilir. Hökmdar görün nə deyir: "Bilin və agah olun! Nə qədər ki bəşər övladının qarnında

qorxu ağrısı var, ürəyində şöhrət azarı, bir gündə yüz şair başı kəsilsə də, heç kəs və heç bir zaman hökmdarın üzünə ağ ola bilməz!" [7, s.241].

Romanın ikinci hissəsində otuzuncu illərin hadisələrindən, sovet repressiyasının törətdiyi faciələrdən söz açılır. Ancaq o illərdə baş verən hadisələr iki əsr əvvəlki qanlı cinayətləri xatırladır. Sədi Əfəndi – məmləkətin tanınmış ziyalısı-şairi istintaqa cəlb olunur, onun taleyi ilə edam edilən şairin taleyi arasında bir oxşarlıq var. Bir sıra müəlliflər "Qətl günü"ndəki hökmdarı Ağaməhəmməd şah Qacara, edam olunan şairi Molla Pənah Vaqifə, Sədi Əfəndini Hüseyn Cavidə bənzədirlər. Bu müqayisələrə səbəb, heç şübhəsiz, təsvir olunan hadisələrlə tarixi dövrdə baş vermiş hadisələrin həmin şəxsiyyətlərin həyatı ilə müəyyən dərəcədə səsləşməsidir. "Qətl günü"ndə sovet repressiyasının bir Azərbaycan ziyalısına – Sədi Əfəndiyə mənəvi işgəncələrlə dolu həyat yaşatması böyük Azərbaycan şairi, dramaturqu Hüseyn Cavidə tutulan mənəvi divanı xatırladır. Oxşar məqamlar az deyil, amma Y.Səmədoğlu təkcə Hüseyn Cavidlə, onun həyatı ilə səsləşən cəhətləri deyil, bütövlükdə həmin dövrün ictimai-siyasi-mənəvi mənzərəsini yaratmışdır. Yazıçılar İttifaqının başında Muxtar Kərimli və onun əlaltıları durur. Budur, iclas gedir, məqsəd Sədi Əfəndini gözdən salmaq, onu sosializm quruluşuna düşmən kimi qələmə verməkdir. Muxtar Kərimli sosializm ideologiyasının 30-cu illərdəki fanatiklərindən biridir. "Muxtar Kərimli qoltuğunda bir xeyli kağız-kuğuz yerindən qalxıb keçdi xitabət kürsüsünə, xeyli danışdı və dediyindən belə məlum oldu ki, balalarımıza əziyyət verən bu traxoma azarı təkcə Allahın bəlası deyilmiş, mənfur sinfi düşmənlərin bəd əməllərindən biridir. Lap axırda da dedi ki, biz qələm sahibləri gözəl-gözəl əsərlər yazmalıyıq, gözəl-gözəl şeirlər, hekayələr yaratmalıyıq ki, bizim balaca balalarımız oxuyub feyziyab olsunlar. Sonra qələm sahibləri növbə ilə danışmağa başladılar. Traxoma azarı qaldı bir tərəfdə, yerindən duran-duran dedi ki, vəziyyətimiz fənadan da fənadır, çünki bu mənfur sinfi düşmənlərin əlindən bilmirik neyləyək" [7, s.201]. Romanda Sədi Əfəndinin istintaqa cəlb olunması prosesi otuzuncu illərin məlum sorğu-sual səhnələrini xatırladır. Sədi Əfəndini həmin idarəyə çağırırlar. "Tovariş Salaxov"un yanına. "Tovariş Salaxov" həm bədəncə yekəydi, həm də Sədi Əfəndidən xeyli cavan. Bəs söhbət nədən gedir? Salahov söhbətə Sədi Əfəndinin romanından başlayır, şair başa düşür ki, bu romanı ona Muxtar Kərimli verib oxumağa. Burada Salahov, Muxtar Kərimlidən fərqli olaraq, əsəri xeyli tərifləyir. Sədi Əfəndinin romanı tarixi keçmişdən bəhs edir və həmin o romandır ki, iki əsr əvvəlki hadisələr, hökmdarın sərbazı edam etməsi, şairin edamı, Üfləmə Qasımın onun əlyazmalarını aradan çıxarması və s. hadisələr təsvir olunur. Nəhayət, yoldaş Salahovun əsl məqsədi məlum olur. Onun niyyəti Sədi Əfəndini sındırmaq, onu böhtana təhrik etmək idi. Buna isə nail ola bilmir. Romanda sovet repressiyasının təkcə otuzuncu illərdə deyil, ondan bir az əvvəl – iyirminci illərdə də faciələr törətdiyi əks olunur. Əslində, repressiyaların ilk dalğası iyirminci illərdə başlamışdı. Bəylər, xan nəslindən olanlar, vaxtı ilə çar və müsavat hakimiyyəti illərində qulluq göstərən şəxslər bu faciələri yaşamışdılar – onlar ya sürgün olunur, ya öldürülür, ya da sinfi düşmən elan edilirdilər.

Zülfüqar kişi (onun artıq yaşı doxsana çatıb) qırx-əlli il əvvəl "tovariş Salaxov"un əmri ilə uryadnik Sarıca oğlu Məhəmmədi öldürdüyünü təəssüflə xatırlayır, bu hadisə illər keçdikcə ona rahatlıq vermir. "Nahaq... nahaq... öldürdüm Sarıca oğlu Məhəmmədi... Qan çanağının ətəyində yaxaladım onu... – Zülfüqar kişi gözlərini yumdu, elə bil mürgüyə getdi, amma sözünü kəsmədi, davam elədi. – Fağır məni görən kimi diz üstə çökdü, dedi, ay Zülfüqar, öldürmə məni, çevir məni

balalarının başına... Başqa çıxış yolu yoxdu, adamın alnına nə yazılıbsa, elə olur. "Tovariş Salaxov, budet sdelano!" Sonra Sarıca oğlu Məhəmmədin meyitini atın belinə aşıranda, dağlar tərəfdən güclü, vıyıltılı bir külək qopanda o, tüfəngini çiynindən asıb, gözlərini qıyıb ətrafına baxmışdı. Sarıca oğlu Məhəmmədin qarnından qopan heyvan böyürtüsü eşidilməsəydi, deyərdin ki, buralar dünya yaranandan bəri bir ins-cins nəfəsi görməyib. Beləcə dayanıb qan iyi aldığından ağzı köpüklənə-köpüklənə qantarğanı gəmirən ata baxmağa ürəyi gəlmədən, havalanmış kimi ucadan demişdi: – Yandım, kül oldum, ay dağlar!" [7, s.144, s.146]. Zülfüqar kişi bu mənəvi əzabları yaşaya-yaşaya günlərin birində gecə evdən çıxır, Kürün sahilinə baş alır, Sarıca oğlu Məhəmmədi "görür", hər ikisi əl-ələ verib Baba Kahaya doğru irəliləyir. Səhər Zülfüqar kişinin meyitini Kürün sahilində, daşın yanında tapırlar.

Ümumiyyətlə, romandakı bütün obrazlar faciə içində, həyatın təzadları ilə üz-üzə gələrək yaşayırlar: zarafatcıl feldşer Mahmud, Tatar Temir, Səlimə və b. Lakin romanın əvvəlindən sonuna qədər diqqət mərkəzində duran Xəstə obrazıdır. Əslində, romanın bütün hadisələri bu obrazın diqqət mərkəzindən keçir. O, Sədi Əfəndinin yaradıcılığından monoqrafiya yazıb. Şəhərdə yaşasa da, doğulduğu kəndlə tez-tez əlaqə saxlayır, feldşer Mahmud onu yoluxmağa gəlir. Zülfüqar kişinin halını soruşur, onun ölümündən təsirlənir. Nəhayət, Yazıçılar İttifaqında Sədi Əfəndinin yubileyi ilə bağlı tədbirdə iştirak edir. Sovet repressiyası artıq arxada qalıb, indi ölkədə demokratik ab-hava hökm sürür, amma Muxtar Kərimli yenə vəzifə başındadır, Yazıçılar İttifaqının sədridir. Muxtar Kərimli və Muxtar Kərimlilər sovet repressiyasının tüğyan etdiyi illərdə Sədi Əfəndi kimi namuslu ziyalıların başına min oyun açırdılar, demək olar ki, ilk fitvanı onlar verirdilər. Bəs necə olur ki, Muxtar Kərimli yenə liderdir, böyük bir təşkilatı idarə edir?! Məsələ bundadır ki, beləlləri hər hansı bir dövrdə zamanın nəbzini tutur, cilddən-cildə girirlər. Hətta 37-ci ildə namuslu ziyalılara qənim kəsilən yoldaş Salahov da yaşayır, Baba Kahanın partladılması günündə iştirak edir. Bütün bunlar isə Xəstəni daha da əsəbiləşdirir, xüsusilə Muxtar Kərimlinin Sədi Əfəndidən çox yazmaq lazım gəldiyi, onun öz layiqli qiymətini almaması barədə dedikləri. Xəstə həm bioloji-fiziki cəhətdən, həm də həyatdakı bütün pisliklərin, cəmiyyəti, mühiti bürümüş yalanların, riyaların təsirindən dünyasını dəyişir.

İlk baxışda roman bədbin əhvali-ruhiyyə yaratsa da, yüksək humanist pafosla yazılmış bu əsərdə zorakılığın, ölümün hər hansı şəklinə qarşı, insan mənliyini tapdayan, mənəviyyatını əzən hər hansı cəbrə qarşı acı bir etiraz var. Çünki bütün ölümlərə, qətllərə qarşı həyat yenə davam edir, azğın hökmdarın əmri ilə edam edilən Şair də, sovet repressiyasının qurbanı olan Sədi Əfəndi də, Sədi Əfəndinin yaradıcılığından əsər yazan Xəstə də yaddaşlarda yaşayırlar, onların həyatı öləndən sonra da davam edir.

Xalq yazıçısı Elçinin "Ölüm hökmü" [2] romanında da sovet repressiyasının ifşası mühüm yer tutur. Roman çoxşaxəli süjet xətti, hadisə və situasiyaların bolluğu, təsvir olunan obrazların qarşılıqlı münasibətlərinin bir-birini tez-tez əvəzləməsi ilə diqqəti cəlb edir. Burada həm zaman, həm də məkanca bir genişlik duyulur. Belə ki, təxminən əlli illik bir dövrün hadisələri əks olunur, məkanlar, yerlər də tez-tez dəyişir. Romanda Tülkü Gəldi Qəbristanlığında baş verən hadisələrdən tutmuş neçə illər öncə Hadrutda baş verən vəba epidemiyasından, otuzuncu-qırxıncı illərdə sovet repressiyasının insanlara verdiyi maddi və mənəvi itkilərdən, həmçinin müxtəlif xarakterə malik və əhalinin müxtəlif zümrələrini təmsil edən insanlardan söz açılır.

Belə demək mümkünsə, "Ölüm hökmü" XX əsr Azərbaycan həyatının gerçəkliklərini əks etdirən bir romandır.

Əsərdə otuzuncu illərin gerçək mənzərəsi canlandırılır, hamı "ellər atası" Stalinin SSRİ-də yaratdığı qayda-qanunlar çərçivəsində hərəkət edir, onun varlığına, "xilaskar" missiyasına təriflər yağdırır, siyasi xəttinə ürəkdən inanır. Ələsgər müəllimin on yaşlı qızı Arzu sovet məktəbində elə tərbiyə alıb ki, onu az qala stalinçi adlandırmaq olar. O, atası ilə söhbətdə "Koroğlu" operasını tənqid edəcəyəm" deyir. Ona görə ki, Üzeyir Hacıbəyov müasir mövzudan qaçıb, o opera gərək kolxoz həyatından olaydı. İndi xan, padşah yoxdur. Koroğlu gərək qolçomaqlara qarşı mübarizə aparaydı. Atası ona deyir ki, Koroğlu qəhrəman olub, xalqın azadlığı uğrunda xanlarla, sultanlarla döyüşə girib. Amma Arzu inadından dönmür, o illərin dəbdə olan "qəhrəmanı" Pavlik Morozovu nümunə gətirir ki, o, qolçomaqlara qarşı vuruşub, hətta atasını, babasını da ifşa edib. Arzu “ellər atası”nı o qədər çox sevir ki, Stalin baba ilə bir qızın şəklini nikel çərçivəyə salıb. O şəkildə Stalin baba balaca qızı bağrına basmışdı, ikisi də gülürdü. Amma "Arzunun xəbəri yox idi ki, həmin dəm, 1939-cu ilin o qış günü o balaca qız – Engelsina (Gelya) Qazaxıstanda sürgündə idi. O balaca qızın atasını – Buryat Monqol Vilayət Partiya Komitəsinin birinci katibi, Buryat Muxtar Respublikasını yaradanlardan birini – Ərdan Markizovu 1937-ci ilin dekabrında "xalq düşməni" kimi ifşa etmiş və yapon casusu kimi güllələmişdilər. Gelyanın anasını da həbs etmişdilər və o balaca qız özündən iki yaş böyük qardaşı Vladlenlə birlikdə tək qalmışdı, ata da, ana da yox idi, təkcə Kremldəki həmin qəbul zamanı Stalin babanın Gelyaya bağışladığı gözəl bir patefon onlarla birliklə idi. Patefonun üstünə bərkidilmiş kiçik dəmir lövhəcikdə yazılmışdı: "Markizovoy Qele ot vojdya partii İ.V.Stalina. 27.1.36 q." [2, s.161]. Bütün bunlardan xəbərsiz olan Arzu anket tərtib edib bir çox suallara cavab verir:

"Ən çox sevdiyin insan – Stalin. Sənə ən doğma olan adam – Stalin. Ən çox sevdiyin ədəbi qəhrəman – Pavlik Morozov. Ən çox sevdiyin yazıçı – Vitali Qubaryov. Kimə nifrət edirsən? – Hüseyn Cavidə, Abbas Mirzə Şərifzadəyə, Mikayıl Müşfiqə, Ülvi Rəcəbə, Yusif Vəzir Çəmənzəminliyə, Nəriman Nərimanova, Ruhulla Axundova və bütün başqa alçaq faşistlərə. Çünki onlar sovet pionerlərinin xoşbəxt həyatını məhv etmək istəyirdilər" [2, s.162-163].

Əsrin yaşıdı olan Xosrov müəllim Ələsgər müəllimin müdir olduğu məktəbdə rus dili dərsi deyir, dinməz-söyləməz bir adamdır, cavanlığında başına fəlakətlər gəlib, guya dəlixanada yatıb. Özü də indi tək yaşayır, dəqiq adamdır, vaxtlı-vaxtında məktəbə gəlir, bir dostu, tanışı da yox. Heç kimlə yaxınlıq etmir, uşaq bağçasında tərbiyəçi işləyən Gülzar xanımla evlənib. Arzunun ad günündə o da iştirak edir və "siyasi səhv" buraxır: "Xıdır müəllimin indicə dediyi sağlıq Xosrov müəllimin Gülzarla birlikdə bu iki aylıq həyatına o qədər yad idi, Gülzarla birlikdə, əslində, ilk dəfə cəmiyyət içinə çıxdığı bu məclisdəki hisslərinə, həyəcanına o qədər yabançı idi ki, heç özü də bilmədi ki, birdən-birə necə ayağa qalxdı və Xıdır müəllimə baxa-baxa əsəbdən titrəyən bir səslə:

– Mir Cəfər Bağırov yoldaş bizim rəhbərimizdi, düzdü, – dedi. – Amma niyə qoymursuz səhərdən bəri bu gözəl qızın, – Xosrov müəllim uzun qolunu qaldırıb barmağı ilə Arzunu göstərdi, – sağlığına içək, bu gözəl qızı təbrik edək?!” [2, s.169-170]. Xosrov müəllim kimi sadəlövh insanlar öz səhvlərinin ucbatından repressiya bəlasına düçar olurlar. Onlar bilmirdilər ki, hər bir məktəbdə (müəssisədə, təşkilatda, təsərrüfatda) Sistemə canla-başla qulluq edən xəbərçilər var. Bunu biləndə isə canlarına qorxu düşür: "Birdən-birə yadına saldı ki, dünyada Xıdır müəllim var və

dünyada Xıdır müəllimlə Mir Cəfər Bağırov arasında – bu uzun məsafədə – get-gedə böyüyən, biri o birisindən uca elə adamlar (və o qədər adamlar!) var ki, Xosrov müəllim kimilərinin minini birdən bükübbürməleyib maye azotun içinə basar, heç "uf" da deməz"! [2, s.181]. Günahsız insanların şərlənməsi isə Xıdır müəllim kimi şarlatanlardan başlayır. Onun fikrincə, Xosrov müəllim açıq-aşkar düşməndir, beləliklə, Xosrov müəllim həbs olunur. Sovet repressiyasının icraatına görə ikinci proses – istintaq başlayır. Bu proses isə müstəntiqlərin böyük "məharəti" ilə həyata keçirilir. Şər, böhtan, siyasi şarlatanlıqdan irəli gələn hiylə, məkr qanunları işə düşür: "Müstəntiq Ələkbərov ətir iyi verən yumşaq və ətli barmağını Xosrov müəllimin uzun burnunun qabağında saxlayırdı.

– Mən Ələkbərovam, başa düşdün? Müstəntiq Ələkbərov! Mən səndən soruşuram ki, o ərizələri kimin adına yazırdın? Sualıma cavab ver!

– Rəhbərlərin adına...

Müstəntiq Ələkbərov ciddiləşirdi və elə bil ki, bir sıçrayışla qarşısındakını məhv edəcəkdi:

– Buxarinin adına yazırdın?

– Nə bilim? Ola bilər!

– Deməli, hə! Rıkovun da adına ərizə yazırdın?

– Rıkov Xalq Komissarları Sovetinin sədri idi də...

– Aha! Deməli yazırdın!

– Camaat xahiş edirdi... Hərənin bir dərdi-səri var idi.

– Bax belə... Gör nə açılır iç üzün sənin? Adamı belə danışdırarlar! Müstəntiq Ələkbərovdan heç nə gizlətmək mümkün deyil. Deməli, Buxarindən, Rıkovdan kömək istəyirdin, hə? Zəhmətkeşlər arasında təbliğat aparırdın ki, Buxarin, Rıkov sizə kömək edəcək?

Xosrov müəllim susurdu, arıq boğazının uzun hulqumu enib-qalxırdı, birdən deyirdi:

– Axı… Axı yoldaş Stalinin də adına ərizələr yazırdım! Ən çox yoldaş Stalinin adına yazırdım!

– Əclaf oğlu əclaf! Məni provakasiyaya çəkmək istəyirsən?! [2, s.222-223].

Müstəntiq Ələkbərovun sorğu-sualı beləcə davam edir, gah qarşısındakını qorxudur, gah onu söyür, yeri gələndə üzünə tüpürür, olmayan işləri boynuna qoyur, bir sözlə, sonuncu istintaqa qədər "günahlarını" etiraf etdirir. Bu, repressiya dönəminin bütün istintaq prosesi üçün səciyyəvi idi.

Romanda M.C.Bağırovun da siyasi portreti canlandırılmışdır. Onun həyatının elə məqamları var ki, ilk dəfə Elçinin romanında təsadüf edirik. İlk növbədə onun Stalinlə möhkəm tellərlə bağlı olduğunu görürük. Təbii ki, Elçin bədii təxəyyülə də geniş yer verir. "Partiya da, Sovet İttifaqı da Mir Cəfər Bağırov üçün yoldaş Stalin demək idi, partiyanın marağı, ölkənin mənafeyi yoldaş Stalinin marağı və yoldaş Stalinin mənafeyi demək idi və Mir Cəfər Bağırov yoldaş Stalinə sədaqətlə xidmət edirdi, bunu yoldaş Stalin də bilirdi, Beriya da, Siyasi büronun başqa üzvləri də bilirdi. Azərbaycanda isə partiya da, respublika da yoldaş Stalinlə birlikdə eyni zamanda Mir Cəfər Bağırov demək idi" [2, s.188]. Bunlar məlum həqiqətlərdir. Amma Elçin M.C.Bağırovun Stalinlə bağlılığını təkcə bu məlum faktlarda aramır, başqa üsullara da müraciət edir. Məsələn, M.C.Bağırovun otağında Stalinin böyük şəkli asılıb. Bu şəkildə Stalinin simasında işıq var. Amma M.C.Bağırov rəhbərin portretdəki bu təbəssümünü, gözlərinin bu işıqlı ifadəsini heç vaxt görməmişdi, bu, rəssamın uydurması idi. Portretə baxa-baxa M.C.Bağırov düşünür ki, təkcə

Azərbaycan yox, bütün ölkəni qaldırmaq, xalq düşmənlərini ifşa edib sonuncusunun da axırına çıxmaq, milyonların ruhunu qaldırmaq, siyasi ehtirasını qızışdırmaq üçün yoldaş Stalin bayraqdır və bu bayrağı həmişə uca tutmaq lazımdır.

Romanda Stalin, Bağırov və Beriya ilə bağlı məlumatlar xalq daxili işlər komissarının bilgilərinə, düşündüklərinə və şəxsən illər boyu müşahidə etdiklərinə istinadən söylənilir. Komissar Bağırovun Stalinlə və Beriya ilə münasibətlərini çox düzgün dərk edir və bu üçlüyün bir-biri ilə nə dərəcədə bağlı olduğunu çox yaxşı anlayır. Xüsusilə Bağırovla Beriyanın hər işdə müttəfiq olduğunu da bilir. Komissar çox şey bilir: 37-38-də "xalq düşməni" kimi ifşa olunub güllələnmiş Ruhulla Axundov, Əliheydər Qarayev, Qəzənfər Musabəyov, Dadaş Bünyadzadə, Sultan Məcid Əfəndiyev, Ayna Sultanova, Hüseyn Rəhmanov, Məmməd Cuvarlı və başqa keçmiş partiya, dövlət rəhbərlərinin istintaqın ilk çağlarında M.C.Bağırov haqqında iftiralar söyləyib, sonra isə fiziki işgəncələr altında həmin iftiralardan imtina edərək sovet hakimiyyəti əleyhinə mübarizə apardıqlarını etiraf etmələri ona yaxşı məlum idi. Heç şübhəsiz, M.C.Bağırov təkcə bir rəhbər kimi deyil, bir insan kimi də cəllad idi. "Komissar bilirdi ki, Zaqafqaziya Xalq Komissarları Sovetinin sədri Qəzənfər Musabəyov səs eşidən kimi kameradakı dəmir çarpayının altına girirdi və onu oradan çıxarıb növbəti istintaqa aparmaq müsibət olurdu… Komissar burasını da bilirdi ki, vaxtı ilə Qəzənfər Musabəyovgillə M.C.Bağırovgil Qubada qonşuluqda yaşamışdılar və Qəzənfərin anası öz çağası ilə – Qəzənfərlə bərabər Mir Cəfəri də döşləriylə əmizdirmişdi. M.C.Bağırov təkcə Q.Musabəyovu tutdurmamışdı, Qəzənfərin bacısı, Azərbaycan SSR xalq ədliyyə komissarı Ayna Sultanovanı da, Aynanın əri, respublikada müxtəlif komissarlıqlara rəhbərlik etmiş Həmid Sultanovu da tutdurub güllələtmişdi və nəhayət, öz süd anasını – Qəzənfərgilin anasını da həbs etdirib Bayıl həbsxanasına saldırmışdı. Döyülüb ağzı-gözü qana bulaşmış o qoca arvadın Bayıl həbsxanasında qışqıra-qışqıra: "Ay Allah, Mir Cəfərə bu döşümdən verdiyim südü haram elə! Onu dünya işığına həsrət qoy!" – deyə qarğış yağdırmağını da komissara çatdırmışdılar" [2, s.213]. M.C.Bağırovla qəbulda daxili işlər komissarı məlumat verir ki, bu gün bir nəfər xalq düşməni kimi həbs olunub, müəllimdir, işlədiyi məktəb müdiri Ələsgər Babazadədir. M.C.Bağırov Ələsgər müəllimi tanıyırdı. Uşaq vaxtlarında Qubada qonşuluqda yaşayırdılar. Bir dəfə Mir Cəfər Ələsgərdən bir kitab götürüb oxumuş, özündə saxlamaq və ya dəyişmək üçün nəyi vardısa, təklif etmişdi, amma Ələsgər Babazadə verməmişdi [2, s.189]. Beləliklə, M.C.Bağırov üçün növbəti qisas məqamı yetişir. Onun komissara "O necə məktəb müdiridir ki, terrorçuları evinə yığır?" sözündən sonra elə həmin gecə Ələsgər müəllimi də, Kələntər müəllimi də, Firidun müəllimi də, Əlibala müəllimi də bir-bir evlərində yuxudan oyadıb terrorçu kimi həbs edirlər. Bu adamlardan yalnız Ələsgər müəllim sağ-salamat qalıb Bakıya qayıdır.

Xalq yazıçısı Hüseyn İbrahimovun "Böhtan" (1988) [6] romanı isə böyük mütəfəkkir Hüseyn Cavidin həyatına həsr olunub, yeddi "nağıl"dan ibarət bu romanda H.İbrahimov keşməkeşli taleyi olan Cavidin doğum günündən ta ölümünə qədər, demək olar ki, xronoloji qaydada keçdiyi ömür yolunu təsvir edir, onun həyatının Naxçıvan, Təbriz, İstanbul, Tiflis, Bakı və Sibir dövrlərini "şəxsiyyətin fonunda epoxanın bədii təqdimi" kimi verir. O dövrü dolğun və gerçək təqdim etmək məqsədilə müəllif Cavidin müəllimi Məhəmməd Tağı Sidqi, müasirlərindən Məhəmmədağa Şahtaxtlı, Əliqulu Qəmküsar, Rza Təhmasib kimi şəxsiyyətlərlə münasibətlərini, habelə qanlı "troyka"nı təmsil edən "qarayaxalı" şəxslərin faciəsini də diqqət mərkəzinə çəkir. Əlbəttə, romandakı hadisələr, Cavidin həyatı ilə bağlı bir

çox məlumatlar bizə tanışdır, bunlar Mişkinaz Cavidin "Xatirələr"ində (2005) və akademik Məmməd Cəfərin "Hüseyn Cavid" (1960) monoqrafiyasında öz əksini tapıb. Amma bununla yanaşı, romanda elə hadisələr də var ki, onlar həm bədii təxəyyülün məhsuludur, həm də təzə faktlardır. Romanın IV və V nağılları daha maraqlıdır. Məlumdur ki, keçən əsrin 30-cu illərində Hüseyn Cavidə qarşı haqsız hücumların sayı çoxalmışdı. Cavidi həm mətbuatda, həm də Yazıçılar İttifaqının iclaslarında tez-tez tənqid edirdilər. Niyə Cavid Azərbaycan həyatından, sosialist gerçəkliyindən, fəhlə və kəndlilərin əməyindən əsərlər yazmır, niyə ancaq keçmişi idealizə edir, türkçülüyü təbliğ edir – əsasən tənqidçilər və hətta tənqidçi olmayanlar da Cavidi bu məsələlərdə suçlayırdılar. Təbii ki, M.C.Bağırovun bu məsələlərdən xəbəri vardı. IV nağılda müəllif M.C.Bağırovla Hüseyn Cavidin görüşünü təsvir edir. Doğrudanmı, belə bir görüş olmuşmu – bu suala cavab vermək çətindir, çünki bu barədə yazılı, ya şifahi bir məlumat yoxdur. Ancaq müəllif bu görüşü ona görə təsvir edir ki, iki şəxsiyyətin – "hakimi-mütləq"in və böyük sənətkarın obrazlarını üz-üzə canlandırsın. Təbii ki, Mir Cəfər Cavidi məlum sözlərlə ittiham edir, onu osmanlıpərəst, pantürkist, panislamist adlandırır. Cavid isə bu ittihamları qətiyyətlə rədd edir. Bağırov ondan soruşur ki, niyə mətbuatda "xaq düşmənləri" Ruhulla Axundovu, Əliheydər Əfəndiyevi, Əliheydər Qarayevi, Ayna Sultanovanı, Qəzənfər Musabəyovu, Həmid Sultanovu ifşa edən məqalələrlə çıxış etmirsən? Cavid də deyir ki, bu adlarını çəkdiyin insanlar sizin mənsub olduğunuz bolşeviklər partiyasının sədaqətli üzvləri idi, mənim bu kommunistlərlə heç bir əlaqəm olmayıb, mən onları nədə ittiham edə bilərəm ki? Beləliklə, M.C.Bağırovla Hüseyn Cavid arasında dialoq başa çatır [6, s.191-192]. Nəticə etibarilə Hüseyn İbrahimov görkəmli şair Hüseyn Cavidin timsalında "böhtanın, şərin, şantajın ağır, acı nəticələrini, törətdiyi məşəqqətləri düşünülmüş gerçək vasitələrlə göz önünə gətirir. Daha vacibi budur ki, müəllif böhtanın mahiyyətini açıqlamaqla yanaşı, böhtançılıq fəlsəfəsinə ümumiləşmiş yazıçı qiyməti vermişdir. Romanın bir yerində Cavid məbus yoldaşına deyir: "Sən heç bilirsən böhtan nədir?.. Böhtan – Mefistofeldir, Demondur… Böhtan – İblisdir" [3].

Qeyd edək ki, "Böhtan" romanı Azərbaycan nəsrində Hüseyn Cavidin bədii obrazını yaradan ilk əsərdir.

**Nəticə.** Müasir Azərbaycan nəsrində sovet repressiyasının ifşasına həsr olunmuş əsərlər poeziya ilə müqayisədə daha çox diqqəti cəlb edir. Nəsrdə tiplər, xarakterlər, təsvir olunan hadisələr daha real və inandırıcıdır. Poeziyada şair qarşısına elə bir məqsəd qoymur ki, müəyyən bir hadisəni, ya təsvir etdiyi obrazın həyatını, mübarizəsini, başqa obrazlarla münasibətini oxuculara təqdim etsin, amma nəsrdə insan xarakterləri, onların bir-biri ilə qarşılıqlı münasibətləri, əsas qəhrəmanların düşüncələri, psixologiyası öz əksini tapır, burada şair xəyalına yer yoxdur. Mehdi Hüseynin "Yeraltı çaylar dənizə axır", Yusif Səmədoğlunun "Qətl günü", Elçinin "Ölüm hökmü", Hüseyn İbrahimovun "Böhtan" romanları sovet repressiyalarının mahiyyətini, dövrün ziddiyyətli ab-havasını açıb göstərir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Anar. Yazıçının ilk romanı (məqalə). "Yusifli, Yusifsiz günlər" kitabı. Bakı: "Nurlan", 2005
2. Elçin. "Ölüm hökmü" (roman). Seçilmiş əsərləri. On cilddə, V cild, Bakı: "Çinar-Çap", 2005
3. Həbibbəyli İsa. Ədəbiyyat qəzeti, 2009, 12 iyun, s.3
4. Hüseyn Mehdi. Yeraltı çaylar dənizə axır (roman). Seçilmiş əsərləri. Üç cilddə, I cild, Bakı: "Avrasiya Press", 2005, 320 səh.
5. Hüseynov İsa. Məhşər (roman). Bakı, "Gənclik", 1978
6. İbrahimov Hüseyn. Böhtan (roman). Bakı: "Şərq–Qərb", 1998
7. Səmədoğlu Yusif. Qətl günü (roman). "Deyilənlər gəldi başa" kitabı. Bakı: "Yeni Nəşrlər Evi", 1999.

***Kamala Jafarova***

**Exposing Soviet Repression in Contemporary Azerbaijani Prose**
***(Based on Mehdi Husayn's, Yusif Samadoglu's, Elchin's, Huseyn Ibrahimov's works)***

***S u m m a r y***

Works dedicated to exposing Soviet repression attract more attention in Contemporary Azerbaijani prose than in poetry. Types, characters, events described in the prose are more realistic and convincing. In poetry, the poet does not set a goal to present a particular event, or the life, struggle, and relationship of the image he portrays with other images to the reader, but the prose reflects human characters, their interactions, thoughts and psychology of the main characters and there is no place for the poet's imagination.

There are several novels in Azerbaijani prose dedicated to exposing the Soviet repression of 1937, the essence of those terrible tragedies, the physical destruction of the intellectuals by the hurricane of repression, or their condemnation to exile in Siberia. The article compares and analyzes the essence of Soviet repressions, the contradictory atmosphere of the time based on Mehdi Husayn's novels "Underground rivers flow into the sea", Yusif Samedoglu's "Day of Murder", Elchin's "Death Sentence", Huseyn Ibrahimov's "Slander".

***Кямаля Джафарова***

**Разоблачение советских репрессий в современной азербайджанской прозе**
***(На основе произведений Мехди Гусейна, Юсифа Самедоглу, Эльчина, Гусейна Ибрагимова)***

***Р е з ю м е***

В современной Азербайджанской прозе произведения, посвященные разоблачению советских репрессий, привлекают больше внимания, чем поэзия. В прозе типы, характеры, описываемые события более реалистичны и убедительны. В поэзии поэт не ставит перед собой такой цели, чтобы представить читателю то или иное событие или жизнь изображаемого им образа, его борьбу, его взаимоотношения с другими образами, но в прозе отражаются человеческие характеры, их взаимодействие друг с другом, мысли, психология главных героев, где нет места воображению поэта.

В Азербайджанской прозе есть несколько романов, посвященных разоблачению советских репрессий 1937 года, отражающих суть тех страшных бед, физическое уничтожение ураганом репрессий отдельных великих деятелей искусства, интеллигенции, обреченность на страдания в сибирской ссылке. В статье сравнивается и анализируется сущность советских репрессий, противоречивая атмосфера эпохи на основе романов “Подземные реки текут в море” Мехти Гусейна, “День убийства” Юсифа Самедоглу, “Смертный приговор” Эльчина, “Клевета” Гусейна Ибрагимова.